**Cəlilin səsi cəbhədən gəldi, Cabbarın səsi xaricdən. Cəlil düşmənə zərbə vurmaqda alayın sevimlisinə çevrilmişdi. Hünərin son ucu ya qalibiyyətdir, ya şəhid olmaq. Cəlil ayağından ağır yaralandığından tale onu bunların heç birinə qovuşdurmadı.**

# Südpulu

HEKAYƏ





*Qərib MEHDİ*

Valideynləri bir küçədə yaşayırdılar. Mehriban qonşu idilər, isti gediş-gəlişləri vardı. Anaları eyni vaxtda hamiləlik dövrü keçirirdi. Yetişmiş vaxt eyni gündə onları doğum evinə apardı. İkisi də muştuluqluq oğul bəhrəsi verdi. Ad seçəndə də uyarlığı nəzərə aldılar. Uşağın birini Cəlil, o birisini Cabbar adıyla qeydiyyata aldırdılar. Çəkiləri də tən gəldi. Zahirən də oxşarlıqları vardı. Axı nədəsə bir fərq olmalıydı. Fərq özünü çox gözlətmədi. İştahları elə körpə ikən, bələkdə ikən onların yollarını ayırdı.

Hələ ikisi də ana südü içirdi. Cəlil qismətinə qail olmağı, Cabbar acgözlüyü ilə seçildi. Cabbar tamlı, ləzzətli, həyatverici ana südündən doymur, qara-qışqırıq salıb əlavə pay istəyirdi. Acgöz uşağın ehtiyacını ödəmək üçün Cabbarın anası Cəlilin anasına süd təmənnası ilə ağız açdı. Cəlilin anası imtina eləmədi. Toxgöz Cəlilin südündən acgöz Cabbara pay ayırdı. Bununla da, ehtiyac ödənildi. Yardım başqa bir xoş nəsnəyə də yol açdı. Cabbarın acgözlüyü hesabına körpələr bələkdə ikən süd qardaşlar oldular.

Körpəlik dövrü keçdi. Uşaqlar süd "bardaqları" ilə vidalaşıb əllərinə çanta aldılar. Onlar eyni məktəbin eyni sinfində, eyni partasında oturub eyni müəllimlərdən dərs almağa başladılar.

Nə qədər ki, çətinlik yox idi, sınağa çəkilmirdilər, yanaşı gedirdilər. Ali məktəbdə fərq eyniliyin ərazisini sıxışdırmağa başladı. Getdikcə Cabbar tamahını, şəxsi mənafeyini cilovlaya bilmirdi. O, təhsil almaqla, bilik öyrənməklə yanaşı, fənd ustalığına, vəziyyətdən çıxmaq bacarığına da yiyələnmişdi. Aralarında elə bir toqquşma olmurdu. Əksinə, Cabbar ziddiyyətlərdən yayınır, ciddi şeyləri zarafata salıb zərərsizləşdirir, tez-tez yada saldığı süd borcu məsələsi ilə qardaşlığının narazı könlünü almağa çalışırdı:

- Anamız bir olmasa da, biz bir ananın südünü əmmişik. Neyləyim ki, mən bir az qarınqulu olmuşam. Basıb sənin də süd payını əmmişəm. Onu pula çevirəndə gör mən sənə nə qədər borcluyam!.. Axı ana südünün qiyməti olmur. Mən bunu heç vaxt yadımdan çıxarmayacağam, zamanı gəldikcə o ağır borcun altından çıxmağa çalışacağam.

Cəlil onun narahatlığını ovundururdu:

- Biz süd qardaşlarıyıq. Qardaşlar arasında haqq-hesab çəkilməz.

Cabbar:

- Yenə olsun də... Heç kim heç kimə borclu qalmamalıdır, hətta qardaşlar da.

Yataqxanada da bir yerdəydilər. Gəzintilər zamanı bir-birindən ayrılmazdılar. Yeyib-içməkləri də bir yerdə keçərdi. Bəzən kasıbyana, bəzən aşırı. Xərclərini hesablayanda Cəlil dəqiqliyə, Cabbar hərdən "qardaş qardaşa tən gəlmək" ölçüsünün sərhədini qarşı tərəfin xeyrinə pozurdu. Özünü elə göstərirdi ki, qardaşlıq xatirinə yükün ağırlığını öz üzərinə götürməkdən mənəvi həzz duyur. Belə hallarda Cəlilin etirazlarına əhəmiyyət vermirdi:

- Bu bədxərcliyi borclu qaldığım südpulunun hesabına yaz. Hələ bu harasıdır?! Gör sonralar nələr olacaq!..

Həyata baxışlarındakı fərq tədrici böyüdüyündən o qədər də nəzəri cəlb etmirdi. Halın nəcəliyi hadisə baş verəndə, seçim qarşısında qalanda bilinirmiş.

Hadisə baş verdi. Qırmızı imperiya laxladı. Bu laxlamadan, çökmədən hər asılı xalq bir cür istifadə etməyə başladı. Dünənki müttəfiq respublikalar müstəqilliyə can atdılar. Və iri-xırdalı təlatümlərin, toqquşmaların izlədiyi bu müqəddəs arzunu gerçəyə çevirirdilər. Hər xalq öz sərhədi daxilində azadlığa qovuşdu. Ermənilər başqa asılılardan daha irəli gedərək bu imkandan iki qazancla çıxmaq xəyalına düşdülər. Rusların körüklədiyi etnik ocaqlar qarşısıalınmaz alova büründü. Can verməkdə olan imperiyanın əli su kranlarını bağlayıb qan kranlarını açdı. Nəticə ağrılı oldu. Torpağımızda yaşayan separatçı ermənilər Azərbaycanın beynəlxalq aləm tərəfindən tanınan ərazi bütövlüyünü pozub ikinci müstəqil Dağlıq Qarabağ erməni dövləti yaratmaq uğrunda savaşa başladılar. Azərbaycan xalqı öz doğma torpağını qorumaq naminə ölüm-dirim savaşına cəlb olundu.

Ölüm-itim, qaçqın-köçkün ölkəni başına götürdü. Torpağı, dinc əhalini qorumaq lazım idi. Həyəcan dalğası səngimirdi. Qiyamı yatırmaq, işğalçılıq müharibəsinin qarşısını almaq üçün dünyanı haraya çağırdılar. Nə faydası?.. Dünyanın təsəlli verən dili bizim, yardım edən əli düşmənin yanında idi. Atalar sözü var: "Yüz mamaça yığılsa da, yenə güc doğana düşür".

Ümid özümüzə qalırdı. Vuruşan, döyüşən, torpağını göz bəbəyi kimi qoruyan igidlərin yeri önə çıxmışdı. Vətən böyük bir "bilgisayarı" qarşısına qoyub dar gündə satqının və sadiqinin, qorxağının və cəsurunun hesabını aparırdı. İlk günlərdən Cəlil də, Cabbar da bu sayın içində idilər.

Cəlil vətəninin qeyrətini çəkən bir oğul kimi universitet təhsilini yarımçıq qoyub Qarabağda gedən qızğın döyüşlərə atıldı.

İkiliyin birliyini qorumağa Cabbarın gücü çatmadı. Ayrılmaz cütlük, süd qardaşları təkləndi. Cabbar harasa yayınmışdı. Xeyli vaxt keçdikdən sonra o, xaricdə iqtisadi əlaqələri olan bir biznesmen kimi peyda oldu. Cəbhədə atəşkəs bağlansa da, qızğın döyüşlər dayansa da, hələ torpaq işğaldan azad olunmamışdı. Hələ həlledici döyüşlər qarşıda idi.

Cəlilin səsi cəbhədən gəldi, Cabbarın səsi xaricdən. Cəlil düşmənə zərbə vurmaqda alayın sevimlisinə çevrilmişdi. Hünərin son ucu ya qalibiyyətdir, ya şəhid olmaq. Cəlil ayağından ağır yaralandığından tale onu bunların heç birinə qovuşdurmadı. Bədəni qəlpəli gənc ordudan tərxis olundu. Hərbi qaydalar onu arxa cəbhə vətəndaşına çevirdi. O, universitetə qayıdaraq yarımçıq qalmış təhsilini davam etdirdi. İki ildən sonra ali təhsilli mütəxəssis oldu. Harda işlədisə, ona tapşırılan vəzifəni gərəyincə, vicdanla yerinə yetirdi. Qabiliyyəti, insanlara qayğısı Cəlili irəliyə - vəzifədən-vəzifəyə yüksəltdi. Sonuncu vəzifəsi daha səlahiyyətli idi. Necə deyərlər, böyük bir rayonun iki ağasından biri idi.

Bu yüksəliş əriyib gözdən itən əlaqələri yenidən bərpa etdi. Günlərin birində Cabbar onun qəbuluna gəldi. Süd qardaşları heç nə baş verməmiş kimi mehribancasına görüşüb uzun ayrılıqdan sonra bir-birinin əhvalından xəbərdar oldular.

- Yüksək vəzifəyə çəkilməyin məni sevindirdi. Bilirəm ki, hökmün, möhürün var. Dar gün üçün pulun necə, varmı?

- Maaşımla birtəhər dolanıram.

Cabbar dostunun cavabına güldü. Əlini cibinə salıb "hamilə" bir zərf çıxardıb (şəksiz ki, pul idi) zorla vəzifə sahibinin cibinə dürtdü:

- Lazım deyil, Cabbar, maaşım mənim xərclərimi ödəyir. Səxavətini, təmənnasız yardımını qiymətləndirirəm. Bilirəm ki, iş adamısan, pulun var. Qoy qalsın özünə. Pul sənə həmişə gərək olur.

Müqavimət fayda vermədi. Cabbar dostunu ərklə qınadı:

- Hərəkətimi başqa yerə yozma. Təmənnasız yardımdır. Qonağının biri gəlib, biri gedir. Ac qonaq acıqlı olar. Rüşvətlə bəxşişin arasında dağlarca fərq var. Mən qardaşıma bəxşiş verirəm. Bir də ki, südpulu elə bir borcdur ki, ödədikcə yenə borclu qalırsan. Bu hesabla mənim sənə yardımım davamlı olacaq.

Tamaha təslim olmaq düşmənə təslim olmaqdan betərdi. Amma bu alışı Cəlil tamahın ayağına yazmadı. Bir də ki, ilk addım kəşfiyyat mahiyyətli olur. Əsl məqsəd, niyyət sonradan özünü büruzə verir. Gözləmək lazımdır.

Cəlilin şübhəsi özünü doğrultdu. Kəşfiyyat mahiyyəti yavaş-yavaş ortalığa çəkdi. Çox çəkmədən Cabbar yenidən Cəlilin qəbulunda oldu:

- Yenə görüşünə gəlmişəm, qardaş.

- Xoş gəlmisən. Gəliş xoşniyyətli olanda adama ləzzət edir.

Cəlil Cabbarı xoş üzlə qarşılasa da, sifətində bir tutqunluq, səsində bir gərginlik vardı. Bu hal qonağın nəzərindən qaçmadı:

- Gözümə birtəhər dəyirsən. Yoxsa vaxtsız gəldim, hansı işinəsə mane oldum?

Cəlil süd qardaşını şübhədən çıxardı:

- Yox, yox, dilxorluğum sənin gəlişinlə bağlı deyil. Əksinə, gəlişinlə ovqatım açılmağa başladı. Axşamkı son xəbər əhvalımı korladı. Televizorda eşitdim, sən qulaq asmamısan?

- Ay sağ olmuş, mənim televizora qulaq asmağa, mətbuatı izləməyə vaxtımmı var? Xaricdəydim, Almaniyadan təzəcə gəlmişəm. Elə bilirsən ki, biznesmen olmaq asan işdir? Yaxşı, de görüm dünən nə baş verib ki?..

- Nankorlar, erməniləri deyirəm, dünən yenə cəbhədə təmas xəttini keçməyə çalışıblar. İki tərəf arasında qızğın atışma olub. Düzdür, əsgərlərimiz onların burnunu ovub niyyətlərini puça çıxarıblar, bununla belə, bizim tərəfdən də itki olub. Üç döyüşçümüz yaralanıb, biri isə şəhid olub. Hansı evimizdəsə bir toy çırağımız da belə söndü. Dözmək çətindir. Mən əsgər olmuşam, haqlının itki verməsinin nə qədər ağır olmasını yaxşı bilirəm.

Cabbar Cəlilə təsəlli verdi:

- Keçmiş olsun. Neyləyəsən ki, qurbansız müharibə olmur. Özünə gəl, səninlə vacib söhbətim var. Zənn edirəm ki, kefin açılacaq.

- Təki xoşxəbər olasan. De görüm, nəyə gəlmisən? Həm vəzifə sahibi, həm vətəndaş, həm də bir qardaş kimi qulluğunda durmağa hazıram.

Cabbar adi bir əhvalat danışırmış kimi məqsədini açıqladı:

- Məqsədim sənin köməkliyinlə neçə sot və ya hektar mümkündürsə, o qədər torpaq almaqdır. İndi pul, qazanc daşınmaz əmlakdadır.

Cəlil gözləmədiyi təklifdən alındı. Lakin bunu büruzə verməməyə çalışdı:

- Sən ki başqa sahənin adamısan. Torpaq sevdası hardan ağlına gəldi?

- Mən biznesmenəm. Pulum da kifayət qədərdir. Təcrübə göstərir ki, alverin hər sahəsi ikibaşlıdır. Burada udmaq da olar, uduzmaq da. Yalnız birbaşa torpaq uduşludur. Torpağın qiyməti günü-gündən artır. İçində tikinti apara bilsən, villalar ucaltsan, qazan-

cın lap kəllə-çarxa qalxacaq.

Cabbarın niyyəti Cəlil üçün tamam aydınlaşdı. O, bir qədər fikrə getdikdən sonra ağır-ağır dilləndi:

- Sən torpaq barədə birinci dəfə mənə söz açırsan. Hətta qeyri-qanuni də olsa, təklifini rədd edə bilmərəm.

Cabbarın əhval-ruhiyyəsi yüksəldi:

- Əşşi, belə şeylər sənin əlində su içimi kimi asan bir şeydir. Hələ bu işin gerisi var, sən də itirməyəcəksən. Ömür bir dəfə verilir, dolanmaq lazımdır. Deyilənlərə çox fikir vermə. Həqiqətçilər axırda ya Məhəmməd peyğəmbər kimi daşa basılır, ya İsa kimi çarmıxa çəkilir - deyib, içində pul olan zərfi ərk ilə "qardaşının" cibinə dürtdü. Cəlilin müqaviməti nəticəsiz qaldı. - Yazılmamış qanunlar daha işlək olur.

Cəlil:

- Arzunu onsuz da gerçəkləşdirəcəyəm. Axı bizim aramızda belə şey olmamalıdır.

Cabbar onun paklıqdan doğan narahatlığına "dəlilli-sübutlu" arxayınlıq gətirdi:

- Sən bunu başqa yerə, rüşvətə-zada yozma. Körpə ikən mən sənin süd payını mənimsəmişəm. Bu elə borcdur ki, ödədikcə tükənmir. Zaman-zaman bu ödənci alacaqsan. İndiki zərf də həmin sıradandır. Hesab elə ki, bunun torpaq məsələsinə dəxli yoxdur.

Cəlil dinmədi. Üzdə bu o anlama gəldi ki, Cabbarın yuxusu çin oldu. Alt qatlarda nələr gizlənmişdi? İlk baxışda bunu duymaq, görmək çətin idi. Cəlil açar salıb dəmir seyfini açdı. Sonra südpulunu cibindən çıxardıb seyfin qaranlıq küncünə atdı.

Cəlil gözlənilmədən diksindi. Bunu Cabbar da hiss etdi, soruşdu:

- Nə oldu?

Cəlil:

- Deyəsən təmas xəttində atışma başlandı. Mənim ürəyim informasiya vasitələrindən dəqiq işləyir.

***

Sanki aralarında şifahi saziş imzalanmışdı. Üzdə olana görə tərəfləri südpulu bir-birinə bağlayırdı. Əslində, rüşvət bir cibdən başqa bir cibə köç edirdi. Elə bil pantomima teatrı düzəltmişdilər. Bu teatrın dramaturqu da, rejissoru da, aktyoru da, hətta tamaşaçısı da iki nəfərdən ibarət idi.

Getdikcə sifarişlər artırdı. Sifarişlər artdıqca südpulu da, yüklü zərflər də artırdı. Cabbar öz adına, uşaqlarının adına, hələ dil açmayan nəvələrinin adına, qohum-əqrəbasının adına torpaq alırdı. Ədalətli işçi, qayğıkeş rəhbər kimi tanınan Cəlilin qeyri-məhdud səlahiyyəti təəccüb doğururdu. Torpağı bir adam üçün belə səxavətlə hərraca qoymaq ixtiyarını kim vermişdi ona? Nə isə, bu, bir başaçılmaz qəribə oyuna oxşayırdı.

Növbəti dəfə Cabbar torpaq almaq niyyətilə dostunun kabinetinə ayaq basanda Cəlil əlini irəli verib qardaşlığına "dur" - dedi. Halbuki, südpulu da yerbəyerindəydi. Rəhbərin tutqun sifəti sözlü idi. Cabbar onun eynini açmağa girişdi:

- Yenə nə baş verib?

Cəlilin səsində bir sərtlik vardı:

- Nə baş verəcək? Düşmən bu münaqişə ilə bağlı məsləhətçi dövlətlərin yumşaq çağırışlarına məhəl qoymur. Yenə təmas xəttində atışma olub.

Cabbar əlini əlinə vurub güldü:

- Olub olub də!.. Bundan ötrü kefini niyə pozursan? Birini atırlar, beşqat cavabını alırlar.

Cəlil onun arxayın danışığına etiraz etdi:

- Axı döyüş bizim torpaqda gedir. Atışmada təkcə evlərimiz, adamlarımız itki vermir, həm də hər dəfə doğma torpağımız yaralanır. Zənn edirəm ki, məsələni hərb yolu ilə birdəfəlik həll etməyin vaxtı çatıb. Kiş-kişlə donuz darıdan çıxan deyil.

Cabbar:

- Çox da fikir eləmə. Hökumət var, dövlət var, yaxşı silahlanmış qoşunumuz var, yəqin məqamı çatanda məsələ həll olunacaq. Biz öz işimizlə məşğul olsaq, yaxşıdır. Səni başa düşmədim. "Dur" işarəsi verməklə yoxsa aramızda olan alış-verişi birtərəfli qaydada dayandırırsan? Əgər belədirsə, səbəb nədir?

Cəlil sanki müsahibinin tələşlı suallarını eşitmirdi. Bayaqkı halından fərqli olaraq sifətinə çökən qara buludu ağ bulud əvəzləmişdi. Bu dəfə "dur" deyən əlini süd qardaşına doğru uzatdı, şən halda dilləndi:

- Səni təbrik edirəm! Nazirlik səviyyəsində sənin adına təşəkkür məktubu almışıq.

Cabbar kəskin dönməli söhbətin gətirdiyi müjdə xəbərindən təəccübləndi:

- Təşəkkür məktubu hansı nazirlikdən gəlib?

Cəlil sirr açırmış kimi ehtiyatla dedi:

- Müdafiə nazirliyindən!..

Cabbar təəccüblə çiyinlərini çəkdi:

- Heç nə başa düşmürəm. Mənim Müdafiə nazirliyi ilə heç bir bağlantım yoxdur. Məni əməlli-başlı başa sal görüm bu nə tapmacadır?

Cəlil:

- Tələsmə. Hər şeyin vaxtı var, - deyə dostunun qolundan tutub onu ekran kimi uzaq mənzərəni, doğma torpaqları özündə əks etdirən pəncərəyə doğru çəkdi. - Müjdəli xəbərdən əvvəl sənə deyəcəklərim var.

- Buyur, eşidirəm. Qulaqlarım sənin ixtiyarındadır.

Cəlil özünü toparladı:

- Biz müharibəyə cəlb edilmiş ölkəyik. Belə durumun öz özəllikləri var. Biz indi torpaq almaq düşüncəsindən çox, torpağı azad etmək düşüncəsilə yaşamalıyıq.

Cabbar diksindi. Bu sözlərdən sonra torpaq alverçisi qarşısında onunla oynayan Cəlili deyil, əsl Cəlili gördü:

- Sözlərindən belə anladım ki, bundan sonra mən səndən torpaq ala bilməyəcəyəm.

Cəlilin yüklü fikri aylarla ağrı çəkən hamilə qadın yaşantısını xatırladırdı. Axır ki, ona əziyyət verən bu fikrin yükünü yerə qoydu:

- Mənim sənə verəcəyim bitib. Bu, hələ gözü doymaq bilməyən niyyətin bitdiyindən xəbər vermir. Erməni işğalında olan, viranəliyə çevrilən çoxlu torpaqlarımız var. Gəlmə, işğalçı ermənilər öz yuvalarına qovə bilsək, qova bilsən, istədiyin qədər torpağa sahiblənə bilərsən!..

Sözün ağırlığından büzüşən Cabbar ruhdan düşmüş halda:

- Mən bunu bacarmaram. Mənimki südpulu verib, əvəzində qardaşımdan torpaq almaqdır.

Cəlil əvvəl səsləndirdiyi müjdə xəbərinə qayıtdı. Dəmir seyfi açıb Müdafiə nazirliyindən aldığı təşəkkür məktubunu dostuna uzatdı:

- Al, bu təşəkkür sənin halalındır. Sən mənim anamın südünü əmmisən. Sonralar o dəyəri yüz mislə qaldıraraq torpaq haqqı kimi mənə vermisən. Mən də o pulları sənin adından Müdafiə nazirliyimizə göndərmişəm ki, ordumuzun təchizatı bir az da möhkəmlənsin. Nazirlik bu nəcib, vətənpərvər hərəkətini lazımınca dəyərləndirərək sənə təşəkkür məktubu ünvanlayıb.

Cabbar nazirliyin təşəkkür məktubunu dostunun əlindən aldımı, almadımı - bunu dərk etmək halında deyildi. Bir onu duydu ki, qardaşlığının payını əmdiyi ana südü zədən-zədən burnundan gəlir.

*30.12.2016*

*Gəncə*